*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (3) 2024*

*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:18.05.2024*
*Kabul tarihi |Accepted:16.06.2024*
*Yayın tarihi |Published:25.06.2024*

**Aybəniz Rüstəmova**

*https://orcid.org/0000-0002-7139-5084*
*Associate Professor, Baku Eurasian University, Azerbaijan, aybenizr0261@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Rüstəmova, A. (2024). Türkdilli Dövlətlərin Əməkdaşlığının Hərbi Aspektləri. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (3), 1990-2011.

# Türkdilli Dövlətlərin Əməkdaşlığının Hərbi Aspektləri

***Xülasə***

*Təqdim olunan məqalə postsovet dövründə Avrasiya məkanında siyasi və iqtisadi inteqrasiya proseslərinin tədqiqinə, Türk Dövlətləri Təşkilatının bu inteqrasiya proseslərindəki roluna, türkdilli dövlətlərin əməkdaşlığının hərbi aspektlərinə və hərbi ittifaq ideyası ətrafında elmi müzakirələrin araşdırılmasına həsr edilmişdir. Siyasi və iqtisadi inteqrasiyanın davamı olaraq TDT dövlətlərinin suverenliyinin və müstəqilliyinin qorunması, separatizmlə mübarizə, iqtisadi layihələrin, neft və qaz kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi, terrorizm, silah qaçaqmalçılığı, narkotiklərin qanunsuz dövriyyəsi və s. bu kimi təhlükələr üzv dövlətlərin birgə, əlaqələndirilmiş hərbi əməkdaşlığını zəruri edir. Türk dövlətlərinin hər birinin böyük hərb tarixi var və onlar tarixən yerləşdikləri siyasi coğrafiyanın həm siyasi, həm də hərbi oyunçuları olmuşlar. Bu dövlətlərin hərbi ittifaq yaratmaq ehtimalı ərazisində türkdilli xalqların yaşadığı İran, Rusiya və Çin kimi böyük və imperiya ənənələrinə malik qonşu dövlətləri xüsusilə narahat edir. Ona görə də türkdilli dövlətlərin hərbi və müdafiə sahəsində əməkdaşlığı çox vaxt Turan ordusunu yaratmaq cəhdi kimi dəyərləndirilir. Təqdim olunan məqalədə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hərbi sahədə əməkdaşlığı, vahid türk* ordusunun *yaradılması və bu sahədə meydana çıxan bir sıra məsələlərin öyrənilməsi nəzərdə tutulur.*

***Açar sözlər:*** *Turan ordusu, hərbi təlimlər, Şuşa bəyannaməsi, Aselsan, Mərkəzi Asiya Təhlükəsizlik İttifaqı*

# Military Aspects of Cooperation of Turkic Speaking States

***Abstract***

*This article is about the study of the political, economic integration processes of the post-Soviet period in the Eurasian region, the role of the organisation of the Turkic-speaking states in these integration processes, the military aspects of the cooperation of the Turkic-speaking states and the*

*scientific debate on the idea of military alliance. Each of the Turkic states has its own great military history; and historically they are both political and military actors of their political geography. The possibility of these states forming military alliances is of particular concern for neighbouring states with large and imperial traditions, such as Iran, Russia, China, whose territories are also inhabited by Turkic-speaking peoples. Therefore, any steps of the Turkic-speaking states in the field of military and defence are often regarded as attempts to build a Turanian army. This article includes an examination of the aims of cooperation of the member states of the Organisation of Turkic States in the military sphere and the creation of a unified Turkic army and the search for answers to a number of questions arising in this field.*

***Keywords:*** *Turan Army, Military exercises, Shusha Declaration, Aselsan, Central Asian Security Union*

**Giriş**

Geostrateji mövqeyi baxımından Şərqlə Qərbi birləşdirən iqtisadi və nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi Türk Dövlətləri Təşkilatını (TDT) müasir beynəlxalq münasibətlərin yeni regional oyunçusuna çevirir. 2008-ci ilin oktyabrında Türkdilli dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) adı altında qurulan əməkdaşlıq mexanizminin əsas məqsəd və vəzifələri kimi regionda və dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm, insan alveri, narkobiznesə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, həmçinin narkotik maddələrin və psixotop maddələrin qeyri-qanuni dövriyyəsinə nəzarət üzrə beynəlxalq siyasətə yardım göstərilməsi, o cümlədən ticarət-iqtisadi, hüquq-mühafizə, hərbi-texniki, enerji, nəqliyyat, ümumi maraq kəsb edən digər sahələrdə regional və ikitərəfli əməkdaşlığın təşviqi nəzərdə tutulub. Xalqlar arasında tarixi bağlara, ümumi dilə, mədəniyyətə və ənənələrə əsaslanan TDƏŞ siyasi qütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə vermək niyyəti güdür. Türk dövlətlərinin müxtəlif sahədə əməkdaşlığı dərinləşdirmək siyasəti və təşkilatlanması siyasi və elmi dairələrdə yaxın gələcəkdə türk dövlətlərinin hərbi ittifaqının yaranmasına dair müzakirələrə də səbəb oldu. Hərbi ittifaq və ya vahid ordu ideyası ərazilərində türkdilli xalqların yaşadığı İran, Rusiya, Çin kimi böyük və imperiya ənənələrinə malik dövlətləri, Ermənistanı və onun müttəfiqlərini narahat edir. Təqdim olunan məqalə Avrasiya məkanında inteqrasiya proseslərinin təhlükəsizlik aspektlərini nəzərdən keçirir, TDT-ə üzv dövlətlərin hərbi sahədə əməkdaşlığını, vahid türk ordusu yaradılmasına dair elmi mübahisələri, praktiki məsələləri, bu sahədə mövcud reallıqları, imkanları və perspektivləri araşdırır.

## 1. Türk Dövlətləri Təşkilatı Avrasiyada İnteqrasiya Prosesinin Bir Hissəsi Kimi

TDT-nin yaranması regional əməkdaşlığın bir çox xüsusiyyətlərini özündə ehtiva etməklə Soyuq müharibənin başa çatmasından sonra Avrasiya inteqrasiya proseslərinin bir hissəsi kimi çıxış edir. Keçmiş ittifaq dövlətləri ilə əlaqələri yeni müstəvidə davam etdirmək adı altında zəifləmiş nüfuzunu geri qaytarmağa çalışan Rusiya siyasi və iqtisadi planda suverenliyini qoruyub saxlamağa çalışan gənc

dövlətlərlə yeni inteqrasiya və əməkdaşlıq modeli qurmaqda maraqlı idi. Bu inteqrasiya keçmiş sovet imperiyası dövründə qurulan iqtisadi, mədəni əlaqələrin davam etdirilməsi baxımından zəruri idi və obyektiv şərtlərlə izah oluna bilər. TDT yaranana qədər post sovet məkanının əsas birlikləri Müstəqil Dövlətlər Birliyi (MDB), Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya İqtisadi Birliyi (AİB) hesab olunurdu.

SSRİ dağılan kimi yaradılan MDB post sovet dövrünün inteqrasiyasından daha çox reinteqrasiyası kimi qiymətləndirilir. İlk vaxtlar dağılmış ittifaq dövlətini əvəz etməyə yönəlmiş konfederativ qurum kimi nəzərdə tutulsa da, ümumi sovet irsinin bölünməsi prosesi tamamilə başa çatdıqdan sonra, dezinteqrsiya prosesləri davam etdikcə MDB-nin mövcudluğunun əsas məqsədi də öz əhəmiyyətini itirməyə başladı. Bu da öz növbəsində birliyin xarakterinə və perspektivinə dair çoxsaylı müzakirələr yaratdı. Lakin belə bir fikir var ki, MDB tamamilə strukturlaşmış təşkilat olduğundan istənilən situasiyadan asılı olaraq müxtəlif məzmunlu problemlərin öhdəsindən gəlmək iqtidarındadır və MDB olmasaydı post sovet məkanında münaqişələr daha çox, onları nizamlamaq imkanları isə daha az olardı (Lansev, 2013, s. 69). Avrasiya inteqrasiya sisteminin digər bir elementini Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) təşkil edir. Bu təşkilatın hansı zəruri kollektiv təhlükəsizlik maraqları səbəbindən yaranmasına dair akademik çevrələrdə çoxsaylı ziddiyyətli fikirlər var. Bir qisim tədqiqatçılar onu müasir dünyanın iki ən böyük (NATO ilə yanaşı) hərbi təşkilatından biri kimi, digərləri isə formal mövcud olan birlik kimi qiymətləndirir. KTMT Varşava Müqaviləsi Təşkilatının varisi, Qərbə qarşı hərbi-siyasi qarşıdurma aləti kimi də xarakterizə edilir. Y.Nikitina Kollektiv Təhlükəsizlik Müqaviləsinin (KTM) NATO-nun Şərqə doğru genişlənməsinə cavab olaraq yaradılmasına dair fikirləri, Əfqanıstan əməliyyatından sonra ABŞ-ın və NATO-nun MDB-yə təsirinin artması ilə əlaqələndirilməsini qeyri-adekvat hesab edir və reallığın əslində tələsik verilmiş streotiplərdən daha mürəkkəb olduğunu yazır (Nikitina, 2005). KTM 1992-ci ilin mayında Daşkənddə Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan arasında post sovet dövlətlərinin "*könüllüyü*" əsasında təhlükəsizliyi kollektiv təmin etmək məqsədilə klassik hərbi alyans kimi yaradılmışdı. 1993-cü ildə Azərbaycan, Belorusiya və Gürcüstan Müqaviləyə qoşuldular. Müqavilənin 4-cü maddəsinə görə bir üzv dövlətə təcavüz digər üzv dövlətlərə təcavüzə bərabər tutulurdu. Bir və ya bir neçə üzv dövlətin ərazi bütövlüyünə, suverenliyinə və təhlükəsizliyinə təhdid yarandığı halda tərəflər yaranmış təhlükəni aradan qaldırmaq məqsədilə öz mövqelərini əlaqələndirmək üçün birgə məsləhətləşmələr mexanizmini işə salmalı idilər (Doqovor o kollektivnoy bezopasnosti). 1999-cu ilin aprelində Gürcüstan və iki türk dövləti - Azərbaycan və Özbəkistan Müqaviləni prolonqasiya etməkdən imtina etdilər. Elə həmin il Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova birlikdə Qərb yönümlü GUAM təşkilatını yaratdlar. Yeni tərkibdə KTM-nin ağırlıq mərkəzi Mərkəzi Asiyaya (MA) yönəldi. Bu dövrdə "daralmış" KTM-də kəskin daxili ziddiyyətlər olmasa da, ümumi maraqlar əsasında həmrəylik də yaranmadı. 1999-cu ildə Rusiyada hakimiyyət dəyişikliyindən sonra KTM-ni Rusiyanın əlverişli xarici və hərbi siyasi alətinə çevirmək cəhdləri edildi. Təhlükəsizlik problemi post sovet məkanının əsas problemi elan olundu. MA Şimali Qafqazdan sonra təhlükələrin ən çox olduğu region kimi nəzərdən keçirilməyə başladı. 1999,

2000-ci illərin yayında Özbəkistan İslam Hərəkatı döyüşçülərinin (ÖİH) Qırğızıstana və Özbəkistana soxulması ilə terrorist və dini-ekstremist qruplaşmaların MA hökumətlərinə təzyiqi gücləndi. Dini-ekstremist qruplaşmaların Əfqanıstanda möhkəmlənməsi və buradan gələn təhlükə Rusiya hökumətini KTM-də bəzi islahatlar həyata keçirməyə vadar etdi. Rusiyanın hərbi texnikasını daxili qiymətlərlə müttəfiqlərə satmasına imkan verən hərbi-texniki əməkdaşlığın prinsiplərinə dair saziş imzalandı (Troitskiy & Zinovyev, 2018, s. 339). Bu sazişinin verdiyi güzəştlərdən ancaq Rusiya faydalana bilərdi. 2001-ci ilin mayında MA regionu çevik kollektiv təhlükəsizlik qüvvələrinin yaradılması qərara alındı. 1500 nəfərdən ibarət (Qazaxıstan, Qırğızıstan, Rusiya və Tackistandan 1 batalyon olmaqla) MA kollektiv çevik qüvvələri (MAÇKQ /КСБРЦА) yaradıldı. ÇKQ-ə daxil olan hərbi bölmələr sülh şəraiti zamanı öz ölkələrinin ərazisində yerləşməli və dövrü olaraq birgə hərbi təlimlər keçirməli idilər. 2004-cü ildə çevik qüvvələrin sayı 11 batalyona qədər artırıldı. KTMT Baş katibi N.Bordyujanın sözlərinə görə lokal böhran hallarında ÇKQ-in tətbiq edilməsinə dair qərar qəbulu üçün saat yarım - iki saat, qüvvələrin böhran rayonuna çatdırılması üçün isə cəmisi bir neçə saat kifayət edəcəkdi (Nikitina, 2005). 2001-ci ilin sentyabrında ABŞ-da məlum terror hadisəsindən sonra Taliban rejiminə qarşı hərbi əməliyyatlar zamanı MA respublikalarında NATO və ABŞ-ın hərbi bazaları yaradıldı. Rusiya ABŞ-ın regionda iştirakını müvəqqəti hal kimi qiymətləndirirdi. Troitski və Zinovyev yazırlar ki, Rusiyanın ABŞ-ın Əfqanıstandakı əməliyyatlarına köməkliyi iki ölkə arasında gərginliyi zəiflətməyə kömək etdi. Yaranmış vəziyyətdə KTM üzvlərinin Rusiya və ABŞ arasında seçim etmək zərurəti də azalmış oldu. Bu vəziyyətdən istifadə edən Rusiya rəhbərliyi KTM-ni yeni formata dəyişmək qərarına gəldi. 2002-ci ilin mayında KTM əsasında beynəlxalq təşkilat: Kollektiv Təhlükəsilik Müqaviləsi Təşkilatı yaradıldı, həmin ilin oktyabrında isə onun Nizamnaməsi qəbul edildi (Troitskiy & Zinovyev, 2018, s. 339). Rusiya təşkilatın normativ hüquqi bazasının inkişafına və alt institutların yaradılmasına dair bir sıra işlər görməli oldu. 2004-cü ilin yayında NATO-nun İstanbul sammitindən əvvəl KTMT Baş katibi N.Bordyuja NATO Baş katibinə iki təşkilat arasında əməkdaşlığa dair rəsmi məktub göndərsə də NATO, qeyri-rəsmi əlaqələrə baxmayaraq KTMT ilə təkilatlararası səviyyədə qarşılıqlı əməkdaşlığa maraq göstərmədi. 2004-cü ildə Birləşmiş qərargah yaradıldı. 2005-ci ilin iyununda KTMT üzv dövlətlərinin hərbi kadrlarının güzəştli, pulsuz əsaslarda hazırlanmasına dair saziş imzalandı (Nikitina, 2005). 2009-cu ildə beynəlxalq terrorizmlə mübarizə məqsədilə Kollektiv Operativ Qüvvələr (KOQ/КСОР) yaradıldı. 2010-cu ilin yayında Qırğızıstanın cənubunda baş verən etnik münaqişədən sonra Rusiya təşkilatın Nizamnaməsinə yenidən baxmağı təklif etdi. 2010-cu ilin sonunda Daşkənd müqaviləsinə və KTMT Nizamnaməsinə üzv dövlətlərin sabitliyinə, ərazi bütövlüyü və suverenliyinə təhlükə yaradan böhranlı hallara cavab verməyi nəzərdə tutan maddə əlavə edildi. Bu maddə təşkilata təkcə təcavüz halında deyil, böhranlı hallarda da kömək üçün müraciət edən üzv dövlətin ərazisinə KOQ/КСОР yerləşdirmək hüququ verirdi. KTMT silahlı qüvvələrlə yanaşı, polis, xüsusi xidmət və sərhəd qoşunlarından istifadə etmək hüququ da əldə edirdi. Təşkilatın mandatı genişləndikcə onun üzv dövlətlərin daxili işlərinə qarışmaq və müdaxilə etmək imkanları da genişləndi (Troitskiy & Zinovyev,

2018, s. 340). KTMT-nin Nizamnaməsinin, institut və orqanlarına dair müddəaların analizi göstərir ki, kollektiv müdafiə birliyi olaraq təşkilatda normalar və prinsiplər qarşılıqlı şəkildə razılaşdırıldığı halda qərarların qəbulu qaydaları və prosedurları haqda bunu demək olmur. Üzv dövlətlərdən hər hansı birinə təcavüz halında kömək göstərilməsinə dair 4-cü maddənin yerinə yetirilməsi proseduru işlənib hazırlanmadı. Sabitlik, təcavüz, böhranlı hallar kimi qarışıq anlayışların müəyyən edilməsi ilə bağlı normativ çərçivələr dəqiqləşdirilmədi. Təhlükəsizliyə təhdidlərin bütün üzv dövlətlər üçün ümumi xarakter daşımaması da KTMT-nın inkişafına ciddi maneələr kimi qiymətləndirilir. Ermənistan və Belorusiya KTMT-nin fəaliyyətinin prioritet istiqamətlərindən olan islam ektremizmi və narkotrafiklə mübarizədə maraqlı olmadıqlarını bildirirlər. Hər iki dövlətin təşkilatda iştirak etməkdə məqsədi onun Rusiya ilə əməkdaşlığı inkişaf etdirməkdə verə biləcəyi imkanlardan yararlana bilməkdir. Belorusiya öz növbəsində KTM-ni Belorusiya hərbi qulluqçularının ölkə ərazisindən kənarda birgə hərbi əməliyyatlarda iştirak etməyəcəyinə dair qeyd - şərtlə imzalayıb (Nikitina, 2005). KTMT nə Ermənistan - Azərbaycan münaqişəsində, nə Özbəkistan və Qırğızıstanda münaqişəli halların qarşısını almaq üçün malik olduğu imkanlardan istifadə etmədi və haqlı olaraq bir təşkilat kimi onun nə üçün fəaliyyət göstərdiyinə aid suallara səbəb oldu. Təşkilatda qərarların qəbulu mexanizminin daha çox Rusiyadan asılı olması, üzv dövlətlərə münasibətdə ikili standartlardan istifadə edilməsi onun nüfuzuna ciddi şəkildə təsir edir.

Qırğız eksperti M.Korqanbayev 2021-2022-ci illərdə Tacikistanın Qırğızıstana, Rusiyanın Ukraynaya hücumu səbəbindən KTMT-nin aktuallığını və zərurliyini tamamilə itirdiyini hesab edir (Korqanbayev, 2023). 2022-ci ildə Qazaxıstanda yanvar hadisələrindən sonra təşkilatın sülhməramlı fəaliyyəti bir daha müzakirə obyektinə çevrildi. KTMT “terrorçulara” qarşı toqquşmalarda iştirak etməsə də bu günə qədər sadəcə hərbi təlimlər keçirən təşkilatın ən qısa vaxtda çevik cavab vermək “qabiliyyətini” dünyaya göstərmiş oldu. Yanvar hadisələri üzv dövlətlərin sabitliyinin təmin edilməsi adı altında KTMT-nin müdaxilə mexanizminə təkan verdiyi, hərbi-siyasi təşkilat olaraq yeni mərhələyə keçdiyi hesab olunur (Turlibayeva, 2022, s.3). Post sovet məkanında inteqrasiya cəhdləri geosiyasi strateji yanaşmalara əsaslanır. Y.Şişkov qeyd edir ki, hər dəfə MDB-nin siyasi və hərbi-strateji məkanında nə qədər çox çat yaranırdısa, bir o qədər də onu iqtisadi məkana reinteqrasiya etmək istəyi yaranırdı. Lakin belə bir reinteqrasiya üçün müəllif obyektiv maneə kimi MDB ölkələrinin iqtisadi inkişaf səviyyəsindəki kəskin fərqləri göstərir (Şişkov, 2001, s. 418). 1999-cu ilin fevralında Belarusiya, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan Gömrük İttifaqı və Vahid iqtisadi məkanının yaradılmasına dair müqavilə imzaladılar. Birinci mərhələdə azad ticarət, vahid vergi tariflərinin müəyyən edilməsi, daha sonra Gömrük İttifaqının və Vahid gömrük məkanının yaradılması, sonda üçüncü mərhələdə ümumi vahid iqtisadi siyasətin aparılması müəyyən edilmişdi. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün təşkilati - hüquqi strukturun yaradılması zərurəti ona gətirib çıxardı ki, yuxarıda adı çəkiən dövlətlər 2000-ci ilin oktyabrında Avrasiya İqtisadi Birliyinin təsis edilməsinə dair müqavilə imzaladılar. Lakin Birlik yaranan zaman məlum oldu ki, üzv dövlətlərin iqtisadi inkişaf səviyyələri arasındakı fərqlər o qədər böyükdür ki, bu dövlətlərin hərtərəfli interqasiyası praktiki olaraq

mümkün deyil. 2003-cü ildə hərtərəfli iqtisadi inteqrasiya formatının yenidən nəzərdən keçirilməsinə dair qərar qəbul edildi. İnteqrasiyaya meylli üç dövlətə: Rusiya, Belorusiya və Qazaxıstana Ukrayna da qoşuldu və yeni inteqrasiya birliyini - Vahid iqtisadi məkanını yaratmaq niyyəti elan edildi. Ukrayna "narıncı inqilabdan" sonra layihədən imtina etdi. Rusiya, Belorusiya və Qazaxıstana yenidən üçtərəfli formatda Gömrük İttifaqı ideyasına qayıtdılar. Gömrük İttifaqının yaranması 2007-ci ildən başladı və 2010-2011-ci illərdə başa çatdırıldı (Lansev, 2013, s. 72). Lakin iqtisadi fərqlərin olması bu ittifaqın da həyatqabiliyyətliliyini şübhə altına alırdı. 2015-ci ildə Gömrük İttifaqı və Vahid iqtisadi məkanı Avrasiya İqtisadi Birliyinə inteqrasiya etdi. İqtisadi birlik kimi bəyan edilməsinə baxmayaraq hazırkı mərhələdə onu ümumi bazar elementlərinə və ayrı-ayrı iqtisadi birlik elementlərinə malik dərinləşmiş Gömrük İttifaqı kimi xarakterizə edirlər. AİB liderlərinni 2017-ci ildə əldə etdikləri razılaşmalara əsasən ancaq 2025-ci ildə bir neçə prioritet ümumi bazarlar yaradıla bilər və bu da mahiyyət etibarı ilə gömrük ittifaqından iqtisadi birliyə keçmək üçün aralıq mərhələ ola bilər. Lakin hadisələrin gedişi onu göstərir ki, hərtərəfli iqtisadi birliyin yaranması çətin ki, gözlənilən tarixdə baş versin (Baqdasaryan, 2020, s. 47). Rusiya özünü post sovet inteqrasiyasının lideri hesab edir və bunun üçün onun bütün geosiyasi, iqtisadi imkanları var. Lakin inteqrasiya proseslərində təkcə bir və ya məhdud sayda dövlətlərin maraqları naminə fəaliyyət yetərli deyil. İnteqrasiya ümumi maraqların qorunması, problemlərin birgə həllini tələb edir. Rusiyanın dominanlıq etmək, keçmiş ittifaq dövründəki kimi liderlik və təzyiq cəhdləri post sovet dövrünün inteqrasiyasını natamam, etibarsız, güvənsiz hala gətirir. S.A.Lantsov haqlı olaraq yazır: Rusiya Federasiyasının keçmiş SSRİ-nin geosiyasi məkanında ağalığı faktı göz qabağındadır. Bir tərəfdən bu, Rusiya tərəfindən gələn bütün təkliflər və təşəbbüslər tərəfdaşlar tərəfindən hər hansı gizli məqsədləri ehtiva edən etibarsız və şübhəli təkliflər kimi qarşılanır. Digər tərəfdən, Rusiya kifayət qədər "yumşaq güc" imkanlarına malik olmadığına görə digər ölkələrin inteqrasiya layihələrinə uduzur (Lansev, 2013, s. 73). Yeni inteqrasiya layihələrində "böyük qardaş" iddiası digər tərəfdaşları bərabər əsasda əməkdaşlıq qura biləcək daha etibarlı müttəfiq axtarışlarına vadar edir. Belə bir şəraitdə Avrasiya məkanında Türkiyənin rəhbərliyi altında türk dövlətlərinin birliyinin əhəmiyyəti önə çıxır. Türk dövlətlərinin əməkdaşlığı müxtəlif sahələri əhatə edir. Türkiyənin aparıcı rol oynadığı bu proseslər, Azərbaycanla və MA ölkələri ilə siyasi, iqtisadi və hərbi sahədə əməkdaşlığı bəzən Türkiyənin KTMT-yə, AİB-ə alternativ təşkilat yaratmaq siyasəti kimi təqdim olunur. SSRİ-nin dağılmasını geosiyasi fəlakət adlandıran A.Samsonov Türkiyənin türkdilli ölkələrlə əməkdaşlığını yeni regional qayda modeli yaratmaq siyasəti kimi qiymətləndirir (Samsonov, 2021). Şumilov daha qabağa gedərək TDT-nin 2019-cu il oktyabr sammitində R. T. Ərdoğanın "Altı dövlət - bir millət" şüarını hərbi-siyasi birliyi gücləndirmək cəhdi kimi şərh edir (Şumilov & Şumilov, 2021, s. 323). R.Şanqarayev yazır ki, türkdilli əhalisi olan dövlətlərin etnik və mədəni birlik adı altında siyasi təmərküzləşməsi ideyasının arxasında əslində türk dövlətlərinin vahid ordusunu yaratmaq layihəsi durur və Türkiyənin türkdilli dövlətlərlə hərbi əməkdaşlığı regionda Rusiyanın maraqlarına qarşı məharətlə aparılan manevr siyasətidir. Hərçənd ki, müəllif vahid türk ordusunun yaranma ehtimalının az olduğunu da etiraf edir (Şanqarayev, 2021, s.

73). Qazaxıstanın Etnosiyasi Strategiyalar Agentliyinin direktoru A.Kobrinski türk dövlətlərinin hərbi əməkdaşlığını “Böyük Turan Ordusunun” yaradılmasının konturları hesab edir. Onun fikrincə birgə hərbi təlimlər digər orduların texnologiyaları ilə tanışlıq məqsədi daşıyır. Türkiyənin Mərkəzi Asiya respublikaları ilə hərbi əməkdaşlığı NATO standartlarının bu ölkələrə nüfuz etməsi deməkdir. Qazaxıstan və Qırğızıstanın KTMT-nın üzvü olmasını nəzərə alsaq, bu həm də NATO standartlarının KTMT-ə nüfuz etməsidir. A.Korbinski türkdilli dövlətlərin Türkiyə ilə hərbi əməkdaşlığını “NATO-nun sürünən ekspansiyası” kimi qiymətləndirir (Panfilova, 2022). Doğrudanmı türkdilli dövlətlərin birliyi MDB, KTMT, AİB kimi Avrasiya inteqrasiya birliklərinə alternativ kimi yaradılıb və onun vahid ordu yaratmaq kimi bir məqsədi var? Bu suallara cavabın verilməsi təşkilatın tarixinə qısa nəzər salmağı zəruri edir.

## 2. Türk Dövlətləri Təşkilatının Yaranmasının Qısa Tarixi, Məqsədləri Və Vəzifələri

Türkdilli dövlətlərin dövlət başçılarının 1992-ci ildən etibarən başlayan və demək olar hər il davam edən görüşlərinin nəticəsi olaraq 2009-cu ildə oktyabrın 3-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) yaradıldı. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin dövlət başçıları tərəfindən imzalanan Naxçıvan Sazişininə əsasən türkdillil dövlətlərin hökumətlərarası birliyin əsas məqsədi üzv ölkələr arasında çoxtərəfli əməkdaşlığa yardım etmək idi (Naxçıvan sazişi). TDƏŞ-in yaradılması haqda ideya ilk dəfə 2006-cı ildə Qazaxıstan prezidenti H.Nazarbayev tərəfindən irəli sürülmüşdü. Şura ilə yanaşı humanitar istiqamətli bir sıra ümüumtürk institutlarının (Türk dünyasının öyrənilməsi Mərkəzi, Türk Akademiyası və s.) yaradılması da nəzərdə tutulurdu (Qadjiyev, 2011). 2018-ci ildə Macarıstanın TDT yanında müşahidəçi statusu alması ilə təşkilatın Avropa institutları ilə əlaqələrinin genişlənməsi üçün yeni imkanlar yarandı. 2019-cu ilin oktyabrında Özbəkistan TDƏŞ-ə üzvlüyə qəbul olundu.

N. Demircan TDT-nin yaranmasını təkcə Avrasiya məkanında deyil, qlobal miqyasda beynəlxalq münasibətlərdə baş verən hadisələrlə əlaqələndirir. 2008-ci ilin iqtisadi böhranı, Covid - 19 pandemiyası, İraqdan və Əfqanıstandan qoşunlarını geri çəkən ABŞ-ın dünya ağalığının zəifləməsi ilə beynəlxalq qaydada böyük xaosun və boşluğun yaranması, ABŞ-ın borclarının həddən artıq çoxalması və dollardan siyasi alət kimi istifadə mövcud beynəlxalq qaydadan narazı olan dövlətlərin yeni alternativ qayda yaratmaq cəhdlərinə səbəb oldu (Demircan, 2023). 2021-ci ildə təşkilatın transformasiyası ABŞ-ın Əfqanıstandan çıxması və Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsi ilə eyni vaxta təsadüf edir. 2021-ci ilin 12 noyabrında İstanbul Zirvə görüşündə TDƏŞ-in adı Türk Dövlətləri Təşkilatı (TDT) ilə əvəz olundu. Türkmənistan təşkilatda müşahidəçi ştatusu aldı. Təşkilatın gələcək fəaliyyətini müəyyən edən “Türk dünyasına baxış: 2040” sənədi qəbul edildi. 2022-ci ilin noyabrında Səmərqənd sammitində 2022-2026-cı illər üçün TDT-nin inkişafını müəyyən edən sənədlər paketi imzalandı. İlkin kapitalı 350-500 milyon ABŞ dolları olan investisiya fondunun və TDT İnkişaf Bankının yaradılması haqda razılıq əldə olundu (https://olke.az). 2023-cü ilin noyabrında Astanada “Türk əsri” çağırışı altında TDT-nin növbəti Zirvə görüşündə Transxəzər Beynəlxalq Şərq-Qərb Mərkəzi Dəhlizi boyunca nəqliyyat fəaliyyətlərinin asanlaşdırılması, fiziki və rəqəmsal infrastrukturun ən qısa zamanda yaradılmasının zəruriliyi qeyd edildi. Təşkilat yanında İƏT-ə (ECO) müşahidəçi statusu verildi. TDT-

nin 2023-2027-ci illər üçün Nəqliyyat rabitə proqramının həyata keçirilməsi üçün Birgə Fəaliyyət Planı (Yol Xəritəsi) qəbul edildi (https://turan.az). Gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti haqqında məlumat mübadiləsini asanlaşdırmaq məqsədilə TDT hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması və beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında sazişlər təsdiq olundu. Gömrük dəhlizinin reallaşdırılması Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu olan Orta Dəhlizin də praktiki əhəmiyyətini artırır. 2020-2021-ci illərdə Orta Dəhliz üzrə yük daşımalarının həcmi 350 min tondan 530 min tona qədər artmışdı. Gömrük dəhlizinin yaradılması isə TDT ölkələri arasında sürətli yük daşımalarına, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma gətirib çıxaracağını deməyə əsas verir (Satıcı, 2023). Göründüyü kimi TDT məqsəd və vəzifələri, ümumi iqtisadi layihələr, ümumi bazar, gömrük ittifaqı və s. kimi prioritetləri baxımından Avrasiya məkanının siyasi, iqtisadi inteqrasiyasının bir hissəsi kimi çıxış edir. Digər tərəfdən S.Hantinqtonun yazdığı kimi soyuq müharibə dövründən sonra eyni tarixi, mədəni dəyərləri paylaşan cəmiyyətlərin yaratdığı dünya qaydasıdır (Huntington, 1996, s. 20).

**3. Türkdilli Ölkələrin Türkiyə İlə Hərbi Əməkdaşlığı**

Gördüyümüz kimi türkdilli dövlətlərin əməkdaşlığının əsas qayəsini iqtisadi əhəmiyyətli layihələr təşkil edir. Beynəlxalq təhlükəsizlik təşkilatın qarşısına qoyduğu digər prioritet məsələlərdən biridir və qlobal və regional təhlükəsizliyə töhvə vermək siyasətinin bir hissəsi kimi çıxış edir. TDT-nin vahid ordu yaratmasına dair müzakirələr üzv dövlətlərin ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığından, birgə hərbi təlimlərin keçirilməsindən, hərbi və digər güc strukturları arasında əməkdaşlıqdan qaynaqlanır. Türkdilli dövlətlərin, xüsusilə keçmiş sovet respublikalarının hərbi sahədə əməkdaşlığı istər ikitərəli, istərsə də çoxtərəfli əməkdaşlıq formatında Sovet İttifaqının dağılmasından sonra, TDT-nın yaranmasından əvvəl qurulub və müasir günümüzdə də davam etməkdədir. KTMT-nin Avrasiya məkanında təhlükəsizliyi təmin etmək iqtisadında olmaması post-sovet məkanında yeni təhlükəsizlik birliklərinin yaradılması ideyasını gündəlikdə saxlayır.

2013-cü ilin yanvarında Bakıda Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan və Monqolustan respublikalarının Avrasiya Hərbi Statuslu Hüquq - Mühafizə Qurumları Assosiasiyasının yaradılması haqda Anlaşma memorandumu imzalandı (üzv ölkələrin rəsmi adlarının baş hərfləri ilə "TAKM"). Assosiasiyanın yaradılmasında əsas məqsəd iştirakçı dövlətlərin aidiyyatı qurumları arasında əlaqələrin möhkəmləndirilməsi, genişləndirilməsi, müasir və səmərəli təşəbbüslərin inkişaf etdirilməsi idi. D.Bironun da qeyd etdiyi kimi TAKM faktiki olaraq FİEP - Avropa və Aralıq dənizi ölkələri Hərbi statuslu Polis və Jandarmlar Birliyinin nümunəsi əsasında yaradılmışdı. Türkiyə 1998-ci ildən bu təşkilatın üzvüdür və onun TAKM-da aparıcı rol oynaya biləcəyi hesab olunurdu. Bu formatda əməkdaşlıq keçmiş post sovet ölkələrinə güzəştli şərtlərlə türk istehsalı olan hərbi məhsulların, silah, rabitə vasitələrinin, hərbi texnika, optik sistemlərin alınmasına imkan yarada bilərdi (Biró, 2021, s. 340). Yarandığı ilk vaxtlarda TAKM-ın təlim-tədris prosesində, hərbi qulluqçuların xidməti fəaliyyətinin təkmilləşdirilməsində təcrübə mübadiləsi aparacağı gözlənilirdi /Hətta onu vahid türk

ordusunun yaradılmasının növbəti addımı kimi də təqdim edirdilər. Lakin assosiasiya ilə bağlı sənədlərin Rusiya, Tacikistan, Özbəkistan və digər ölkələrə də göndərilməsi göstərirdi ki, TAKM-ı türk ordusu kimi qələmə vermək düzgün yanşma deyil. Hadisələrin sonrakı gedişatı göstərdi ki, TAKM-ın yaradılmasına hər hansı ciddi zərurət yoxdur və onun gələcəkdə ciddi təşkilat olacağı da inandırıcı görünmür.

Türkdilli dövlətlərin TDT çərçivəsində hərbi əməkdaşlığının araşdırılması onu göstərir ki, türk dövlətlərinin inteqrasiyası hərbi məqsədlər üzərində qurulmadığından hər hansı hərbi strukturun yaradılması prosesi də müşahidə edilmir. Dövlətlər arasındakı hərbi, hərbi-texniki, hərbi-sənaye sahələrində əməkdaşlıq təşkilatın qurulmasından əvvəl başlanan prosesin davamıdır. Təşkilat yarandıqdan sonra bu sahədə əməkdaşlıq yeni vüsət aldı, birgə təlimlərin sayı artdı, hərbi-sənaye sahəsində əməkdaşlıq genişləndi. Türk dövlətlərinin hərbi əməkdaşlığı hazırkı mərhələdə TDT üzv dövlətlərinin ikitərəfli və çoxtərəfli əməkdaşlığından ibarətdir. Onları şərti olaraq əməkdalıq oxları da adlandırmaq olar: Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı, Türkiyə - MA dövlətlərinin hərbi əməkdaşlığı, MA respublikalarının hərbi əməkdaşlığı, Azərbaycan-MA dövlətlərinin hərbi əməkdaşlığı. Özlüyündə bu əməkdaşlıq oxları gələcəkdə vahid ordu quruculuğunun əsasını təşkil edə biləcək alt-sistemlər kimi də çıxış edə bilər.

TDT dövlətləri içərisində ən sıx və yüksək səviyyədə hərbi əməkdaşlıq Azərbaycan və Türkiyə arasında qurulub. İki ölkənin hərbi əməkdaşlığı hərbi təhsil və hərbi-texniki sahələrdə başlamış, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə qədər inkişaf etmişdir. Məhz bu iki dövlətin hərbi əməkdaşlığı türk dövlətlərinin hərbi birliyinin əsası kimi nəzərdən keçirilir. İki ölkə arasında hərbi əməkdaşlığın möhkəm və zəngin hüquqi bazası var. "Qarşılıqlı hərbi təlim-təhsil haqqında müqavilə" (1992), "Əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol" (1994), "Hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında saziş" (1996) (https://ordu.az) və bu kimi digər sənədlər əsasında qurulan və inkişaf etdirilən hərbi əməkdaşlıq 2010-cu ilin avqustunda imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə ilə ən yüksək səviyyəyə çatdı. İkitərəfli hərbi əməkdaşlıqda daha geniş imkanlar yaradan bu müqaviləyə görə tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qalardısa, BMT Nizamnaməsinin fərdi və ya kollektiv özünü müdafiə hüququ verən maddəsinə əsasən hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədi ilə bir-birinə qarşılıqlı yardım göstərəcəklərinə dair razılığa gəlirdilər. Tərəflər eyni zamanda müdafiə ehtiyaclarının təmin olunması zərurətini nəzərə alaraq silahlı qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilməsi üçün lazımı planlaşdırma həyata keçirmək, müdafiə və qarşılıqlı yardımın həyata keçirilməsi çərçivəsində birgə hərbi əməliyyatlar aparmaq məqsədi ilə hərbi infrastrukturlarının təkmilləşdirilməsi, silahlı qüvvələrin hərtərəfli hazırlığı, onların zəruri silahlarla və hərbi texnika ilə təmin edilməsi üçün bütün lazımi milli tədbirləri görmək öhdəliyi götürürdülər (maddə 8, https://e-qanun.az/framework/21158). Müqavilədən bir ay sonra 15 sentyabrda Yüksək Səviyyədə Strateji Əməkdaşlıq Şurasının yaradılması haqda razılıq əldə olundu. Bakıda istehsal olunan

hərbi texnikanın modernləşdirilməsi məqsədilə Türkiyə müdafiə-sənaye şirkəti Aselsanla əməkdaşlığa başlanıldı, Roketsanla idarə olunan artilleriya raket sistemləri və uzaqmənzilli raket sistemlərinin satışına dair sazişlər imzalandı (Göksedef, 2020). 2017-ci ilin oktyabrında müdafiə sənayesi sahəsində hökumətlərarası sazişin imzalanmasından sonra iki ölkə arasında münasibətlər keyfiyyətcə yeni müstəviyə keçdi. Azərbaycan - Türkiyə hərbi əməkdaşlığının nəticələri özünü 2020-ci ilin sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsində də göstərdi. Ermənistanın təcavüzkar siyasətinə cavab olaraq başlanan hərbi əməliyyatlarda üç minə yaxın şəhid verən Azərbaycan Ordusu otuzillik işğala son qoydu və əldə olunan qələbə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığnın qələbəsi kimi tarixə düşdü.

2021-ci ildə iyunun 15-də Şuşa şəhərində iki ölkə arasında müttəfiqlik münasibətlərinə dair "Şuşa Bəyannaməsi" imzalandı. Prezident İ.Əliyev Şuşa bəyannaməsinin ən önəmli məsələlərindən birinin müdafiə sahəsindəki əməkdaşlıq, müdafiə sənayesi və qarşılıqlı hərbi yardım məsələləri ilə bağlı olduğunu bildirdi. Bəyannamədə tərəflər iki ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklərini elan etdilər. Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq etmək haqda razılığa gəldilər. Azərbaycan və Türkiyə digər dost ölkələrin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklərini bildirdilər. Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq şəkildə bir-birinə zəruri yardım göstərəcəklərinə dair razılıq əldə olundu (https://president.az). Şuşa bəyannaməsinin imzalanmasından sonra ölkəsinə geri qayıdan Türkiyə prezidenti R. T. Ərdoğan Azərbaycanda Türkiyə hərbi bazalarının yaradılmasının mümkünlüyünə dair suala "... bu açıqladığımız maddələrin xaricində deyil" deyə cavab vermişdi. Lakin o zaman Rusiya rəsmiləri bu açıqlamaya cavab olaraq bildirdi ki, NATO ölkələrinin Rusiya sərhədləri yaxınlığında hərbi infrastrukturunu yaratması Moskvanın xüsusi diqqət yetirməsi və beynəlxalq təhlükəsizliyi təmin etmək üçün addımlar atması üçün bir səbəb ola bilər (https://www.bbc.com/azeri/articles/c4n3309r8yvo). 2022-ci ilin sentyabrında türk generalı Bəxtiyar Ersay Azərbaycan Müdafiə nazirinin müşaviri təyin edildi. Bu təyinatın məqsədi Azərbaycan ordusunun Türkiyə ordu modelinə uyğunlaşdırılması, quru qoşunlarında struktur islahatlarının aparılması hesab edilir (bbc.com/rssuian/neüs-63955065). 2023-ci ilin yayında Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın və bu sahədə inteqrasiyanın davamı olaraq HAKİM Hava Komandanlığı və İdarəetmə

Sisteminin qurulmasına dair birgə layihə işə salındı. "İki dövlət, bir millət, bir hava məkanı" şüarını rəhbər tutan bu layihə hər iki ölkənin HHQ-nə fəaliyyətlərini əlaqələndirmək və birgə əməliyyatlar həyata keçirmək, Azərbaycanın hava məkanını etibarlı şəkildə nəzarətdə saxlamaq məqsədi daşıyır. HAKİM sisteminin tətbiqinin başa çatması Egey dənizindən Xəzər dənizinə qədər hava məkanını birgə nəzarətdə saxlamağa imkan verəcək (https://turan.az/ru/politika). Türk generalının Azərbaycan müdafiə nazirinə müşavir təyin edilməsi, vahid havadan müdafiə sisteminin qurulması Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın yüksək səviyyəyə çatdığını göstərir. Türkiyə həm də Azərbaycana müdafiə sahəsinə ən çox hərbi yardım edən ölkələrdən biridir. Türkiyə Müdafiə naziri Vəcdi Könülün dediyinə görə 2010-cu ilədək Azərbaycana göstərilən hərbi yardımların həcmi 200 milyon dollardan çox olmuşdur.

Azərbaycan müdafiə sənayesi məhsullarının idxalı üzrə Türkiyənin ən böyük tərəfdaşıdır. Röyter agentliyi 61 sahə üzrə 95 mindən çox ixraccı şirkəti birləşdirən Türkiyə İxracatçılar Assosiasiyasının məlumatına istinadən 2020-ci ildə Türkiyənin Azərbaycana hərbi ixracının 6 dəfə artdığını yazır. Təkcə sentyabr ayında Dağlıq Qarbağda hərbi əməliyyatlar başlamadan əvvəl dronların, raket qurğularının, döyüş sursatlarının və digər döyüş texnikalarının satışı 77 milyon dollar təşkil etmişdi. 2020-ci ilin ilk doqquz ayı ərizndə Azərbaycan Türkiyədən 123 milyon dollar məbləğində sənaye və aviasiya avadanlığı almışdı. Müqayisə üçün onu deyək ki, 2019-cu ilin analogi dövrü üçün bu məbləğ 20,7 milyon dollar təşkil edirdi (Toksabay, 2020). 2023-cü ilin iyulunda "İDEF - 2023" Beynəlxalq müdafiə sənayesi sərgisi çərçivəsində gələcəkdə milli döyüş təyyarələrinin istehsalı sahəsində planlaşdırılan birgə layihələrdə mühəndis texniki heyətin hazırlanması məqsədi ilə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyənin "TUSAŞ" şirkəti arasında Niyyət protokolu imzalandı. Eyni zamanda Azərbaycan HHQ-ə məxsus Su-25 döyüş təyyarələrinin modernləşdirilməsinə, Türkiyə istehsalı idarəolunan silah sistemlərinin inqteqrasiya edilməsinə dair razılıq əldə olundu (https://modern.az/olke). 2023-cü ilin iyul ayında iki dövlət KAAN döyüş təyyarəsinin istehsal olunmasında əməkdaşlığa dair razılığa gəldilər. Türkiyənin 5-ci nəsil çoxməqsədli KAAN milli döyüş təyyarəsi F-16 təyyarələrini əvəz etmək məqsədilə yaradılıb və "hava-hava", "yer-yer" döyüşünün tələbləri üçün üstün imkanlara malikdir. Sadəcə qırıcı bomardmançı təyyarə deyil, eyni zamanda komanda - idarəetmə təyyarəsi olaraq qiymətləndirilir. Yeni nəsil təyyarə aşağı radara görünmə qabiliyyətinə, daxili silah yuvası, yüksək manevr qabiliyyəti, artırılmış situasiya məlumatlılığı və sensor birləşməsi kimi texnoloji üstünlüklərə malikdir və Türkiyəni ABŞ, Rusiya, Çin və d. bu kimi 5-ci nəsil döyüş təyyarsi istehsal edən məhdud sayda dövlətlərlə bir sıraya qoya bilər (https://ordu.az/ru/news/317078). 2020-ci ildə Türkiyədən Azərbaycana ixrac olunan hərbi məhsulların həcmi altı dəfə artdı. Təkcə 2020-ci ilin oktyabr ayında, Dağlıq Qarabağda hərbi əməliyyatların başlamasından əvvəl dronların, digər hərbi texnikanın satışının məbləği 77 milyon dollara yaxın idi. 2020-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan Türkiyədən 123 milyon dollar dəyərində müdafiə və aviasiya avadanlığı almışdı. 2019-cu ildə iyul ayında Azərbaycan-Ermənistan arasında sərhəd toqquşmalarından sonra Türkiyədən alınan dronlar, raket qurğuları, hərbi sursatlaların məbləği hissəsi ölkəyə daxil oldu. İyulda satışın həcmi 278 880 dollardan avqustda 36

milyona, sentyabrda isə 77, 1 milyona çatdı. 2019-cu ilin doqquz ay ərzində Türkiyə Azərbaycana 20,7 milyon dollar dəyərində hərbi məhsul satmışdı (Toksabay, 2020). İki ölkə dövrü olaraq hərbi əməkdaşlıq planlarının tərkib hissəsi olan birgə hərbi təlimlər keçirir. Birgə təlimlər Azərbaycan Silahlı Qüvvələrinin (SQ) döyüş hazırlığını gücləndirir, digər ölkələrin silahlı qüvvələri ilə birgə əməliyyatlarda iştirak etmək bacarıqlarını artırır. 2012-ci ilin noyabrında Mərkəzi Anadoluda ("Qafqaz qartalı"), 2013-cü ilin iyununda Naxçıvanda genişmiqyaslı təlimlər keçirildi. 2013-cü ilin iyul ayında planlı şəkildə hərbi təlimlərin keçirilməsinə, təlimlərə ev sahibliyi edən ölkə və şəxsi heyət göndərən ölkənin vəzifələrinə dair Anlaşma memorandumu imzalandı (http://president.az/mobile/articles/8775). 2014-cü ilin sentyabrında keçirilən birgə təlimlərdə Azərbaycan SQ-nin bütün qoşun növləri təmsil olunurdu. Mərhələli irimiqyaslı əməliyyat-taktiki və komanda-qərargah təlimlərinə 30 min nəfərədək şəxsi heyət, 250-dən çox zirehli texnika, raket və artilleriya qoşunlarının 150-dən çox qurğusu, HHQ-nin 20-dək təyyarəsi və 15 helikopteri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə qoşunların hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket briqadaları cəlb edilmişdi (http://news.milli.az/politics/296801.html). 2015-ci ilin mart - aprel aylarında Konyada HHQ-nin "TurAz Şahini 2015" birgə təlimlərində hər iki ölkənin pilotları bir-birinin istifadəsində olan hərbi təyyarələri sınaqdan keçirdilər. Təlimlərdə Azərbaycan HHQ-nin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarəsi, 4 ədəd Mi-17 döyüş-nəqliyyat helikopterləri, Türkiyə HHQ-nin F-16, F-4E 2020, E-7T (HİK) təyyarələri, AS-532, UH-1H helikopterləri iştirak edirdi (http://www.faktxeber.com). 2016-cı ildə Dağlıq Qarabağda baş verən toqquşmalardan sonra birgə hərbi təlimlərin sayı və miqyası artdı. Tovuz hadisələrindən sonra 29 iyul - 10 avqust tarixlərində Azərbaycanın 5 şəhərində, HHQ-nin iştirakı ilə genişmiqyaslı hərbi təlimlər keçirildi. Əgər 2019-cu ildə 13 hərbi təlim keçirilmişdisə, 2022-ci ildə onların sayı 20-yə çatmışdı. 2023-cü ilin oktyabrında Bakı şəhəri, Naxçıvan MR və azad olunmuş ərazilər də daxil olmaqla ölkənin müxtəlif istiqamətlərində keçirilən "Mustafa Kamal Atatürk-2023" birgə taktiki təlimə müxtəlif qoşun növlərindən ümumilikdə 3000-dək şəxsi heyət, 130 ədəd zirehli texnika, 100-dək artilleriya vasitəsi, 20-dən artıq aviasiya və uçuş vasitələri, eləcə də mühəndis texnikası və kiçik botlar, türk F-16 qırıcıları cəlb olunmuşdu. Təkcə 2023-cü ildə 14 birgə hərbi təlim keçirilmiş və hərbi-sənaye kompleksləri sahəsində birgə layihələrə başlanılmışdı (https://report.az/herbi-xeberler ). Türkiyənin MA-nın türkdilli dövlətləri ilə hərbi əməkdaşlığı 1990-cı illərin ortalarından etibarən başlayır və hərbi təhsil, hərbi-texniki sahələri əhatə edir. MA-da Türkiyənin ən böyük hərbi-texniki və strateji tərəfdaşı Qazaxıstan hesab olunur. 1993-cü ildə iki ölkə arasında hərbi təhsilə dair hökumətlərarası saziş, 1996-cı ildə hərbi sahədə əməkdaşlığın genişlənməsinə dair protokol imzalandı (Ovsepyan, 2010, s. 95). Türkiyə 1990-2000-ci illərdə Qazaxıstana əvəzi ödənilmədən kartoqrafik avadanlıq, əlaqə vasitələri, hərbi maşınlar verdi. 2011-ci ildən Aselsan və Qazaxıstan arasında əldə olunmuş razılığa əsasən Astanada birgə müdafiə müəssisəsi fəaliyyətə başladı (https://www.trtrussian.com). 2018-ci ilin sentyabrında N.Nazarbayevin Türkiyəyə rəsmi səfəri zamanı

iki ölkə arasında bərabərhüquqlu və qarşılıqlı səmərə prinsipi əsasında uzunmüddətli hərbi əməkdaşlığın inkişaf etdirilməsinə dair saziş imzalandı. Saziş hərbi hazırlıq və təhsil, birgə təlimlərin keçirilməsi, müdafiə sənayesi, sülhyaratma əməliyyatları, hərbi, elmi və texniki tədqiqatlar kimi sahələrdə hərbi əməkdaşlığın davam etdirilməsini nəzərdə tutur, kartoqrafiya, hidroqrafiya, topogeodeziya təminatı, hərbi əmlakın hava məkanından tranziti, tibbi yardımın göstərilməsi və digər istiqamətləri də əhatə edirdi. Tərəflər illik plan üzrə əməkdaşlığa dair razılığa gəldilər. Hərbi kəşfiyyat sahəsində əməkdaşlığa dair protokol imzalandı. Protokol üç sahədə əməkdaşlıq şərtlərini müəyyən edirdi: 1) hərbi kəşfiyyat məlumatlarının qarşılıqlı mübadiləsi və aktual məsələlərə dair ekspert qiymətləndirilməsi; 2) regionda (dövlətdə) dövlətin təhlükəsizliyinə təhdid yaradan hərbi-siyasi vəziyyətin inkişafının monitorinqi; 3) dövlətin təhlükəsizliyinə təhdid yaradan beynəlxalq terrorçu təşkilatların və digər təşkilatların münasibətlərinə dair qarşılıqlı informasiya mübadiləsi (https://armiya.az/ru/news/190158). 2023-cü ilin mayında Kazakstan İnjiniring törəmə şirkətində pilotsuz uçuş aparatları ANKA-ların yığılması və texniki xidməti həyata keçirilməsinə dair Türkiyənin TUSAŞ aerokosmik şirkəti arasında hərbi-texniki əməkdaşlığa dair memorandum imzalandı. Qazaxıstan Türkiyə ilə hərbi-sənaye kompleksinin qurulmasına dair əməkdaşlığı genişləndirməkdə, NATO standartlarına uyğun hərbi texnikanın, xüsusilə 155 kalibrli mərmilərin istehsalında maraqlıdır. Hazırda iki ölkənin hərbi idarələri hərb elmi, təhsil, döyüş hazırlığı, hərbi-texniki sahədə əməkdaşlıq edirlər.

MA-nın MDB dövlətləri içərisində ordu quruculuğu və müdafiə xərclərinə görə ən zəif ölkəsi Qırğızıstan hesab olunur. Bu səbəbdən istər regional, istərsə də qlobal dövlətlərin hərbi yardımlarından demək olar ki, heç vaxt imtina etmir. Türkiyənin Qırğızıstanla hərbi əməkdaşlığı 1993-cü ildən başlayır və hərbi təhsil, hərbi-texniki sahələri və maddi yardımları əhatə edirdi. İki ölkə arasında imzalanan sənədlərin sayı hazırda 120-dən çoxdur və əlaqələr strateji əməkdaşlıq səviyyəsində davam etdirilir. İkitərəfli əlaqələr "Batken hadisələri"ndən (1999-2001) sonra fəallaşmağa başladı. 2001-ci ilin iyununda Türkiyə Qızğızıstana dəyəri 1 milyard dollara yaxın hərbi vasitə və avadanlıq verdi. 2003-cü ilə qədər Türkiyənin müqavilə əsasında Qırğızıstana göstərdiyi hərbi və maddi yardımların həcmi 3,5 milyon dollar təşkil edirdi (Ovsepyan, 2010, s. 96). 2014-cü ilin sentyabrında hərbi-tibbi sahədə əməkdaşlığa dair sənəd imzalandı. Qırğızıstan hökuməti Türkiyə hərbi-sənaye məhsullarına, xüsusilə PUA-lara maraq göstərir. 2021-ci ildə Türkiyədən bir neçə Bayraktar TB2, Bayraktar Akınçı və Aksungur PU-ları, 40 zirehli avtomobil alındı (Kudayarov, 2023). Türkiyə və Özbəkistan hərbi əməkdaşlığı da ilk vaxtlar hərbi-texniki sahəni və hərbi yardımları əhatə edirdi. 2000-ci ilin oktyabrında iki ölkənin müdafiə nazirlikləri arasında hərbi və hərbi-texniki əməkdaşlığa dair müqavilə, eləcə də təhlükəsizlik və terrorzmə qarşı mübarizə sahəsində əməkdaşlığa dair saziş imzalandı. Bu sazişlər təhlükəsizlik və hərbi-texniki sahədə əməkdaşlığın dərinləşməsində mühüm rol oynadı. 2002-ci ildə müqavilə üzrə qarşılıqsız olaraq Özbəkistana 1,2 milyon dollar dəyərində, 2003-cü ildə terrorizmlə mübarizə çərçivəsində 1,5 milyon dollar yardım edildi, 2004-cü ildə isə 610 min dollar dəyərində hərbi-texniki və tədris vasitələri verildi. 2002-2004-cü illər ərzində Özbəkistana göstərilən əvəzsiz hərbi-texniki yardımların həcmi 3 milyon 300 min dollar təşkil edirdi. Hərbi sahədə əməkdaşlığa dair imzalanmış

müqavilə Özbəkistan SQ zabitlərinin Türkiyədə təhsil alması və terrorizmə qarşı mübarizədə hazırlıq səviyyəsinin yüksəldilməsini nəzərdə tuturdu (Ovsepyan, 2010, s. 97). 2022-ci ilin noyabrında iki ölkə arasında döyüş hazırlığı və hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlığa dair saziş imzalandı.

**4. Vahid Türk Ordusu ideyası: Mövcud Vəziyyət Və Təşəbbüslər**

2022-ci ilin yanvarında Qazaxıstanda müstəqillik tarixinin ən böyük böhranı baş verdi. Sıxılmış qazın qiymətinin kəskin artırılmasına etiraz olaraq Janaozen və Aktau şəhərində başlayan narazılıq ölkənin ən iri şəhəri Alma-Atıya yayıldı. Mitinqlər geniş vüsət aldı, şəhər aeroportu və prezidentin keçmiş iqamətgahı mitinq iştirakçıları tərəfindən ələ keçirildi. K.J.Tokayevin xahişi ilə KTMT-nin SQ ölkəyə yeridildi. Qazaxıstanda ölkədaxili proseslərə KTMT-nin belə çevik reaksiyası sabitlik və əmin-amanlıq hissindən daha çox qorxu yaratdı. R.Outzen bu hadisənin türk dövlətlərinin Rusiya və Çinlə yanaşı "üçüncü qonşuya" ehtiyacını önə çıxardını yazırdı (Outzen, 2024, s. 24). K.J.Tokayevin KTMT-ni köməyə çağırması türkdilli dövlətlərdə də birmənalı qarşılanmadı. Türkiyə hökuməti Qazaxıstanın suverenliyinin müdafiə olunmasında dəstəyini təklif etdi. Rəsmi və qeyri-rəsmi dairələrdə "Birləşmiş türk qüvvələrinin" yaradılmasının zəruriliyinə dair müzakirələr aparıldı. Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin (QAFSAM) vitse-prezidenti N.Cəfərsoy TDT-nin böhranlı hallarda çevik əməliyyat keçirmək iqtidarında olan siyasi birliyinin və ya təhlükəsizlik strukturunun yaradılması təşəbbüsü ilə çıxış etdi (Panfilova, 2022). Qırğız eksperti M.Korqanbayev KTMT-yə alternativ olaraq Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın daxil ola biləcəyi, şərti olaraq Mərkəzi Asiya Təhlükəsizlik İttifaqı (MATİ) adlandırıla biləcək alyansını yaratmağı təklif etdi. Yeni hərbi-siyasi təşkilatın yaradılması dövlət başçılarının siyasi iradəsini, potensial üzvlər arasında çoxsaylı məsləhətləşmələrin aparılmasını, o cümlədən MA dövlətlərinin hərbi sənayesinin inkişafını tələb edir. Korqanbayev hesab edir ki, MA ölkələri arasında məhz hərbi-texniki sahədə əməkdaşlıq MATİ-nin qurulması üçün əsas ola bilər (Korqanbayev, 2023). Yeni hərbi-siyasi birlik türkdilli dövlətlərin özlərinin güvənə biləcəyi alyans olmalı və "Türklərin Sülh naminə Biliyi" şüarı altında qurulmalıdır. Bu ittifaqın fəlsəfi konsepsiyasını türk xalqlarının hərbi qardaşlığı və Cənubi Qafqazdan, obrazlı desək Şuşadan türkmən-əfqan sərhədinə qədər təhlükəsiz regionun qurulması təşkil edir. MATİ, eyni zamanda üzv dövlətlərin bütün güc və təhlükəsizlik strukturlarının əlaqələndirilmiş birliyini yaratmağı nəzərdə tutur. Bu təşəbbüs qəbul edilərsə, çoxmilyonlu çağırışçı ehtiyatı ilə 200 mindən çox insanı əhatə edən nəhəng türk ordusu qurula bilər (Babazade, 2024).

**5. Mərkəzi Asiya Dövlətlərinin Müttəfiqlik Münasibətləri**

MA-nın türkdilli dövlətləri aralarında mövcud fikir ayrılıqlarına baxmayaraq müttəfiqlik münasibətlərini dərinləşdirməkdə maraqlıdırlar. Regional təhlükəsizliyin və sülhün təmin olunmasında MA dövlətlərinin birgə əlaqələndirilmiş fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Özbəkistan və Qırğızıstan arasında hərbi əməkdaşlığın normativ-hüquqi bazası yaradılıb və illik əməkdaşlıq planları çərçivəsində davam etdirilir. Qırğızıstan və Qazaxıstan 2003-cü il müttəfiqlik münasibətlərinə dair

müqaviləni 2024-cü ildə yenilədilər. İkitərəfli əməkdaşlığı dərinləşdirmək məqsədilə yenilənən müqavilənin bazası separatizmlə, terrorizmlə mübarizəni, iqtisadi, su-enerji, təhsil, mədəni-humanitar sahələrdə əməkdaşlığı ehtiva edir. Hərbi əməkdaşlıq müxtəlif istiqamətlərdə davam etdirilir, birgə hərbi təlimlər təşkil olunur. 2019-cu ildə iyunda Qazaxıstanda "Səhra qartalı" adlı, sentyabrda isə Qırğızıstanda İssık-göl sahilində birgə antiterror təlimləri keçirildi (Aşimov, 2019). 2021-ci ilin noyabrında Özbəkistan və Qazaxıstan müdafiə nazirlikləri arasında əməkdaşlıq haqda saziş imzalandı. Hər iki ölkə regional təhlükəsizlik problemlərini nəzarətdə saxlayır, hərbi-texniki sahələrdə əməkdaşlıq edir, birgə təlimlər təşkil edirlər. Qazaxıstanda birgə "Kalkon 1", Özbəkistanda "Xamkorlik 2021" birgə təlimləri göstərə bilərik (https://www.aa.com.tr/ru). MA dövlətlərinin iqtisadi sahədə inteqrasiya siyasəti öz növbəsində müdafiə və təhükəsizlik sahəsində əməkdaşlığı zəruri edir. Son dövrlərdə MA-da Avropa İttifaqının Şengen vizasına analoq olan "İpək yolu vizası" (Silk Road Visa) tətbiq etmək barədə müzakirələr aparılır. Layihə həyata keçərsə gələcəkdə Qırğızıstan,Türkmənistan, Tacikistan, Azərbaycan, İran, Gürcüstan və Çinin də ona qoşulması gözlənilir. Bu baxımdan layihə təkcə turizm sahəsində deyil, xüsusi xidmət, təhlükəsizlik sahəsində də əməkdaşlığın dərinləşdirilməsini tələb edəcək.

### 6. Türkdilli Dövlətlərin Birgə Hərbi Təlimləri

Türk dövlətləri həm ikitərəfli, həm də çoxtərəfli qaydada xüsusi təyinatlı, anti-terror xarakteri daşıyan birgə hərbi təlimlərdə iştirak edirlər. Birgə hərbi təlimlər xüsusi əməliyyatarda qüvvə tətbiq etmək, nəzarət olunmayan yerlərdə qeyri-qanuni silahlı birləşmələrin məhv edilməsi, nəzarət olunan zonalara desant çıxarılması və bu kimi xüsusi hallarda SQ-in döyüş hazırlığının yüksəldilməsində, koordinasiya olunmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində böyük təcrübə qazandırır. 2021-ci ilin 28 iyun-12 iyul tarixlərində Türkiyədə keçirilən "Anadolu 2021" xüsusi təyinatlı beynəlxalq hərbi təlimdə digər dövlətlərlə yanaşı Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə SQ-nin hərbi hissələri iştirak edirdilər (https://www.zakon.kz ). 2022-ci ilin noyabrında Türkiyənin İsparta vilayətində Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti, Qazaxıstan və Qırğızıstan hərbi qulluqçularının "21-ci məskunlaşmış məhəllələrdə terroristlərlə mübarizə əməliyyat kursu" çərçivəsində birgə hərbi təlimi təşkil olundu. Rusiyanın "Nezavisimaya" qəzeti Səmərqənd sammitindən sonra keçirilən bu təlimi TDT çərçivəsində ilk hərbi təlim kimi qiymətləndirdi və Türkiyənin TDT ölkələrində mümkün böhranların operativ şəkildə qarşısının almağa qadir birlik yaratmaq niyyəti ilə əsaslandırdı (Panfilova, 2022). 2022-ci ilin məlum yanvar hadisələrindən sonra prezident K.J.Tokayevin sərəncamı ilə xüsusi əməliyyat qüvvələrinin komanda strukturu yaradıldı. Bu strukturun yaradılmasında məqsəd ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi, antiterror əməliyyatlarında, qeyri-qanuni silahlı birləşmələrin qarşısını almaq idi. İsparta təlimi də məhz bu qüvvələrin hazırlığı məqsədini güdürdü. Türkiyənin bu sahədə təcrübəsi böyükdür və 2021-ci ildə Azərbaycanla bu istiqamətdə 6 həftəlik təlim keçirmişdi.

2023-cü ilin sentyabrında Bakının beynəlxalq dəniz ticarət limanı Ələtdə TDT-nin Fövqəladə halların idarə olunmasına məsul olan güc strukturlarının təşkilatçılığı ilə "Bakı 2023" beynəlxalq təlimi

baş tutdu. Təlim irimiqyaslı fövqəladə hallar zamanı TDT üzv ölkələrin fövqəladə halların idarə edilməsinə cavabdeh qurumlarının xilasetmə qüvvə və vasitələrinin birgə fəaliyyət mexanizminin həyata keçirilməsi, real imkanlarının müəyyən edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi və bununla bağlı qərargahların əməliyyat hazırlığının yüksəldilməsi, irimiqyaslı fövqəladə hadisələr zamanı qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması, qarşılıqlı fəaliyyət və hərtərəfli təminatın təşkili məqsədi daşıyırdı (https://apa.az/). 2024-cü ilin 6-17 may tarixində Konyada "Anadolu qartalı: 2024" beynəlxalq axtarış-xilasetmə təlimində Qətər, Polşa, Rumıniya, Səudiyyə Ərəbistanı, Türkiyə hərbçiləri ilə birlikdə Azərbaycan hərbçiləri də iştirak etdilər. Təlimdə azərbaycanlı hərbi pilotlar Su-25 ML hücum təyyarələri ilə şərti düşmənin yerüstü hədəflərinin aşkar olunması, onlara aviasiya zərbələrinin endirilməsi və irəliləyən qruplara yaxın hava dəstəyinin verilməsi üzrə tapşırıqlar yerinə yetirdilər (https://mod.gov.az/ ). 2024-cü ilin 25 aprel-8 may, 9 may-30 may tarixlərində İzmir körfəzi və "Doğanbey" atış təlim bölgəsində keçirilən iki hissədən ibarət "Efes-2024" genişmiqyaslı beynəlxalq hərbi təlimlərində 49 ölkədən ümumilikdə 1567 nəfərdən ibarət şəxsi heyət iştirak edirdi. Çoxmillətli təlimdə ABŞ, Böyük Britaniya, Almaniya, Mərakeş kimi ölkələrin hərbçiləri ilə yanaşı türkdilli dövlətlərin hərbçiləri də iştirak edirdi (https://www.trtworld.com/). Türkiyə SQ-nin iştirakı ilə iki ildən bir keçirilən Efes beynəlxalq hərbi təlimlərində 2016-cı ildə 8, 2018-ci ildə 20, 2022-ci ildə 37 ölkə iştirak etmişdi. 2022-ci il təlimlərinə İtaliya, Azərbaycan, Bosniya, Hersoqovina, Şimali Makedoniya, Pakistan, Albaniya, Qazaxıstan, Qırğızıstan, ABŞ, Fransa və d. ölkələrdən 10 mindən çox hərbçi cəlb olunmuşdu. Efes təlimlərində QQ, HHQ və HDQ ilə yanaşı xüsusi təyinatlı qüvvələrin də əməliyyatları təşkil edilir (https://www.turkishdefencenews.com). Hərbi təlimlər türk hərbi sənaye məhsullarının təqdimatı baxımından da mühüm əhəmiyyətə malikdir. Belə ki, Efes təlimlərində Türkiyə hərbi müdafiə sənayesinin 47 şirkəti tərəfindən istehsal olunan müdafiə sənaye məhsullarının sərgisi təşkil edildi. Təkcə Aselsan şirkəti 70-ə yaxın sistemlə sərgidə iştirak edirdi (https://armiya.az/ru/news/213223). 2024-cü ilin iyul ayında Qazaxıstanın Aktau şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan müdafiə nazirlikləri arasında imzalanmış birgə plana uyğun olaraq qoşunların döyüş hazırlığının keyfiyyətini artırmaq məqsədilə "Birlestik-2024" **(**Birlik) beynəlxalq operativ-taktiki komanda-qərargah təlimləri keçirildi.

### 7. Hərbi- Sənaye Sahəsində Əməkdaşlıq

Türkiyənin TDT dövlətləri ilə hərbi sahədə əməkdaşlığı eyni zamanda özündə iqtisadi və biznes maraqlarını da ehtiva edir və bu halda hərbi və iqtisadi diplomatiyanın bir-biri ilə çuğlaşdığını görmək olar. Müdafiə sənayesi sahəsində əməkdaşlıq hərbi əməkdaşlığın mühüm hissəsini təşkil edir. Ona görə də türk dövlətləri bu sahədə əməkdaşlığın hüquqi və texniki infrastrukturunu yaratmaqda maraqlıdırlar. Hərbi sənayedə digər dövlətlərdən asılılıq hərbi əməkdaşlığa ciddi maneə törədir. Məsələn, Türkiyə Azərbaycana "Fırtına T-155" özüyeriyen top (Öbüs) satmaq istəyən zaman, bu topun mühərrikini istehsal edən Almaniyanın MTU şirkəti Dağlıq Qarabağ probleminə əsaslanaraq, satışa əngəl olmuşdu. Türkiyə Qafqazda Azərbaycanın, MA-da türkdilli dövlətlərin əsas hərbi-texniki tərəfdaşıdır,

hərbi-texniki avadanlığın tədarükçüsüdür, dolayısı yolla TDT dövlətlərində NATO standartlarının yayılmasında və tətbiqində aparıcı gücdür. Ədalət və İnkişaf Partiyasının 2002-ci ildə hakimiyyətə gəldiyi vaxt Türkiyə dünyada silah idxalına görə 3-cü, silah ixracına görə isə 12-ci yeri tuturdu. Beynəlxalq Sülh Problemləri Araşdırmaları İnstitutunun (SİPRİ) məlumatına görə Ankara 2004-cü ildən 2022-ci ilədək xarici hərbi idxaldan asılılığını 80 %-dən 20 % -ə sala bilib. Onun ABŞ-dan idxalı 2016 – 2020 -ci illər ərzində 81 % azalıb. "F-35"-lər və "Patriot" raketləri əldə edə bilmədikdə yerli müdafiə sənayesi maneələrə, embarqolara baxmayaraq güclənməkdə davam etdi və Ankaranı hərbi-hava, hərbi-dəniz, yerüstü, elektronika və döyüş sursatı istehsalında yeni istehsalçıya çevirdi. SİPRİ-nin 2023-ci ilin mart hesabatına görə Türkiyənin silah ixracı 2013-2017-ci illərlə müqayisədə 2018- 2022-ci illərdə 69% artmışdır. SİPRİ-nin hesablamalarına görə dünya silah bazarında Türkiyənin payı iki dəfə artmış və dünya silah ixracının 1,1 %-ni təşkil etmişdir. Türkiyənin müdafiə istehsalı və Aerokosmik Sənaye Assosiasiyasının 2022-ci il iyun hesabatında (SASAD) qeyd olunur ki, bu sahədə gəlirlər 2022-ci ildə əvvəlki illərlə müqayisədə 20%-dən çox artaraq 12,2 milyard dollar təşkil etmişdir. PUA-ların, xüsusilə Bayraktar TB2-lərin yüksək sürətli satışı nəticəsində 2022-ci ildə Türkiyə müdafiə sənayesi rekord həcmdə: 4,4 milyard dollardan çox gəlir əldə edib, bu isə 2021-ci il ilə müqayisədə 36% çoxdur. 2023-cü ildə Türkiyə hərbi ixracı 6 milyard dollar təşkil edirdi. Türkiyə dünyada ən TCG Anadolu (L-400) (dünyada birinci PUA daşıyan) böyük hərbi gəmiyə malik, milli döyüş tankı (MBT) ALTYA və KAAN qırıcılarına malik olması müdafiə sahəsində yeni imkanlar açır (Bakir, 2023). Türkiyə müdafiə və aerokosmik sənaye ixracı 2024-cü ilin may ayı üçün ən yüksək həddə: 876 milyon dollara çatıb. Türkiyə Müdafiə sənaye naziri H.Görgünün verdiyi məlumatına görə 2024-cü ilin yanvar-may aylarında müdafiə və aerokosmik sənaye ixracı keçən ilin analoji dövrü ilə müqayisədə 9% artaraq 2, 21 milyard dollar olub. Türkiyə 185 ölkəyə 5,5 milyard dollar dəyərində 230 adda məhsul ixrac edib. Hazırda 10 milyard 240 milyon dollar həcmində kontraktlar imzalanıb (https://1news.az/news). Türk dövlətlərinin hər biri böyük hərbi təcrübəyə və potensiala malikdir. Azərbaycan dünya üzrə hərbi güc göstəricilərinə görə 2024-cü il üçün Global Firepowerin reytinqində 59 yeri tutur. Bu göstərici şəxsi heyətin, aviasiyanın, quru qüvvlərinin, hərbi-dəniz, loqistika, maliyyə kimi meyarlar əsasında müəyyən edilmişdi. TDT üzvləri içərisində Türkiyə həm ordu, həm hərbi xərclər baxımından daha böyük dövlət hesab olunur. 2021-ci il məlumatına görə onun 355.200-ü aktiv, 156.800-ü jandarma və 378.700-ü ehtiyat olmaqla, cəmi 890.700 şəxsi heyəti var və ilə ABŞ-dan sonra NATO-nun ən böyük ordusuna sahibdir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın aktiv, polis və ehtiyatda olan hərbçilərinin ümumi sayı təxminən 597 350 nəfərdir. Türkiyənin 2020-ci ildə hərbi xərcləri 17, 724 milyard dollar səviyyəsində olub. Digər beş türk dövlətinin 2020-ci ildə hərbi xərcləri 5, 647 milyard dollar təşkil edib (Türk dünyası 2040 viyonu, s. 52). Bununla belə türkdilli dövlətlərin regional və qlobal təhlükələrin öhdəsindən təkbaşına gələ biləcəyini söyləmək çətindir və bu, bir daha onu deməyə əsas verir ki, milli və regional təhlükəsizliyin təmin olunmasında koordinasiya olunmuş hərbi əməkdaşlığın qurulması zəruridir.

**Nəticə**

Çoxsaylı araşdırmalar türkdilli dövlətlərinin hərbi birliyinin yaradılmasına dair hər hansı layihənin mövcud olmadığını göstərir. Məlum olur ki, türk dövlətlərinin kollektiv təhlükəsizlik sahəsində üzdə görünə bilən birgə planları yoxdur. Lakin onlar hərbi, kəşfiyyat və d. sahələrdə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı zəmin yaradıblar. Beləliklə biz, kollektiv təhlükəsizliyin kandarında böyüməkdə olan, diskrit təhlükəsizlik münasibətlərinin şahidi oluruq. Ola bilsin ki, əslində "Turan ordusu" adlana biləcək hər hansı ittifaqın yaradılması nəzərdə tutulmayıb, lakin türkdilli dövlətlərin hərbi əməkdaşlığı, təhlükəsizlik və müdafiə sahəsində ikitərəfli əlaqələrinin möhkəmlənməsi böyük geosiyasi əhəmiyyət daşıyır və gələcəkdə daha rəsmi bir həddə qədər yüksələ bilər. Türkdilli dövlətlərin hərbi əməkdaşlığı, vahid ordunun və ya hərbi ittifaqın yaradılması ehtimalı Rusiya, Çin, İran elmi və siyasi dairələrində çox ciddi narahatlığa səbəb olur. Xüsusilə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının uzunmüddətli perspektivdə Azərbaycanın suverenliyinə və milli kimliyinə təhdid yaradacağı və ya Cənubi Qafqazda qüvvələr tarazlığını və sabitliyi pozacağı kimi proqnozları verilir. Qafqazda və Mərkəzi Asiyada türk dövlətlərinin əməkdaşlığının Qərb strateqləri və siyasətçiləri üçün müsbət nəticələrinin olduğu da söylənilir. Məsələn, hesab edilir ki, Qafqazda və Mərkəzi Asiyada türk dövlətlərinin əməkdaşlığının dərinləşməsi Avrasiyanı yüz ildən çox zaman ərzində Vaşinqtonun və Qərbin strateji prinsipi olan hardlənddə Rusiya, Çin və ya İranın hökmranlığından qoruya bilər. Bu ölkələrin istər ayrı-ayrılıqda, istərsə birlikdə Pekinin və ya Moskvanın himayəsi altında mühüm təhlükəsizlik potensialını qurması ABŞ üçün strateji risk yarada bilərdi. Gördüyümüz kimi, türk dövlətlərinin təhlükəsizlik və hərbi sahədə əməkdaşlığı TDT çərçivəsində siyasi, iqtisadi və mədəni konvergensiyadan ayrı olmaqla paralel həyata keçirilir. Əvvəla ona görə ki, hazırkı mərhələdə TDT-in üzvləri fərqli beynəlxalq təhlükəsizlik təşkilatları qarşısında öhdəlik daşıyırlar. Qazaxıstan və Qırğızıstan KTMT-nin, Türkiyə isə NATO-nun üzvüdür. Təşkilatda müşahidəçi statusunda iştirak edən Macarıstan o cümlədən NATO-nun üzvüdür. Təşkilatın digər müşahidəçi türk dövləti Türkmənistan bitərəf dövlətdir. Azərbaycan Bloklara qoşulmamaq hərəkatının üzvüdür. İkincisi, hərbi əməkdaşlığın hərbi ittifaq səviyyəsinə qaldırılması həm NATO-da, həm də KTMT-da, xüsusilə Rusiyada, eləcə də Çində böyük etiraz yarada bilər. TDT üzvlərinin hərbi əməkdaşlığında əsasən ikitərəfli format üstünlük təşkil edir. Bununla belə çoxtərəfli birgə hərbi təlimlər də təşkil olunur. TDT üzv dövlətlərinin hərbi sahədə əməkdaşlığı hərbi platformaya keçməyib və siyasi əməkdaşlığın bir hissəsi olaraq yaxın dövrlərdə davam etdiriləcək. Türk dövlətlərinin hərbi əməkdaşlığı və mümkün təhdidlərə qarşı birgə fəliyyəti Qafqazlardan Asiyaya qədər geniş bir ərazinin təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edir. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi Cənubi Qafqazda çoxdan gözlənilən sülhə böyük ümidlər yaratmışdı. Lakin Ermənistanın sürətlə silahlanması, KTMT-də iştirakını dondurması (bir daha təşkilatın nüfuzundan xəbər verir), ABŞ-la hərbi əməkdaşlığı dərinləşdirməsi (son günlərdə sülhyaratma əməliyyatlarında operativ uyarlılığı təmin etmək adı altında keçirilən "Eagle Partner" təlimləri) Cənubi Qafqazda vəziyyəti yenidən gərginləşdirir. Türkiyənin Suriya, Mərkəzi Asiyanın Əfqanıstan kimi

narahat dövlətlərlə qonşuluğu, potensial terror təhlükələri, iqtisadi və nəqliyyat layihələrinin təhlükəsizlyinin təmin edilməsi, suverenliyin qorunub saxlanılması türkdilli dövlətlərin hərbi sahədə fərdi və ittifaq halında güclü hərbi potensiala malik olmasını zəruri edir. 2023-cü ilin dekabrında Bakıda "Qarabağ: 30 ildən sonra evə qayıdış. Nailiyyətlər və çətinliklər" adlı beynəlxalq forumda çıxışı zamanı Azərbaycan prezidenti İ.Əliyev TDT üzv dövlətlərinin milli təhlükəsizlik, sabitlik və müdafiə sahəsində əməkdaşlığına dair müvafiq xəritəsini" hazırlamağın zəruriliyini qeyd etdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qazandığı tarixi təcrübə hərbi hazırlığın yüksək səviyyədə olmasının milli dövlətçilik üçün böyük əhəmiyyət kəsb etdiyini bir daha sübut etdi. TDT-də NATO-ya bənzər hərbi ittifaqının yaradılması haqda danışmağın hələ tez olduğunu hesab edirlər. Hazırkı mərhələdə əsas diqqət müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığa, birgə hərbi məhsulların istehsalına, birgə təlimlərə yönəldir.

**Kaynaklar**

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə. https://e-qanun.az/framework/21158

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokolun təsdiq edilməsi barədə. https://e-qanun.az/framework/8913.

Aşimov, A. (2019). Kazaxistan i Kirqizistan doqovorilis ukreplyat svoi voenno-vozduşnie sili nd fone rasşireniya voennoqo sotrudniçestva. [Kazakhstan and Kyrgyzstan have agreed to strengthen their air forces against the background of expanding military cooperation]. https://central.asia-news.com/ru/articles/cnmi_ca/features/2019/12/06/feature-01

Babazade, A. (2024). Tukskoe yedinstvo v novom izmerenii. [Turkic unity in a new dimension]. https://br.az/politics/73568/tyurkskoe-edinstvo-v-novom-izmerenii/

Baqdasaryan, K. M. (2020). Sravnitelniy analiz modeley inteqrasionnix prosessov EAES, ASEAN I VREP I perspektivi ix sotrudniçestva [Comparative analysis of models of integration processes of the EAEU, ASEAN and RCEP and prospects for their cooperation]. *Vestnik of Rostov State University of Economics (RINH), 4* (72), 44-55

Bakir, A. (2023). Turkey's defense industry is on the rise. The GCC is one of its top buyers. https://www.atlanticcouncil.org/blogs/menasource/turkey-defense-baykar-gcc-gulf/

Biró, D, (2021) The Turan Army. Opportunities for a new military cooperation led by Turkey. *Nuova Antologia Militare, 8* (2), 333-359.

Demircan, N. (2023). The role of turks in the new world order: summit of the organization of turkic states and turk time. *Modern diplomacy*. https://www.researchgate.net/publication/375866729

Doqovor o kollektivnoy bezopasnosti [Collective Security Treaty]. https://odkb-sto.org/documents/documents/dogovor_o_kollektivnoy_bezopasnosti/#loaded

Göksedef. E. (2020). Dağlık Karabağ: Türkiye, Azerbaycan'ın askeri kapasitesini geliştirmesinde nasıl rol oynadı? https://www.bbc.com/turkce/haberler-turkiye-54379105

Huntington, S. P. (2004). *The clash of civilizations and the remaking of world order*. Braille Jymico Incorporated.

Kudayarov, K.A. (2023). Kirgizko-Tureskoe sotrudniçestvo v voennoy sfere. [Kyrgyz-Turkish cooperation in the military sphere]. 52-59. https://cyberleninka.ru/article/n/kirgizsko-turetskoe-

Korqanbayev, M. (2023). Voenno-texniçeskoe sotrudniçestva-odin iz kluçevix şaqov v stanovlenii buduşeqo CA-soyuza. [Military-technical cooperation is one of the key steps in the formation of the future Central Asian Union]. https://nazarnews.org/ru/posts/razvitie-voenno-

Qadjiyev, A.Q. (2011). Problemi i perspektivi inteqrasii turkskoqo mira: sozdanie Delovoqo Soveta turkoyaziçnix stran. [Problems and prospects for integration of the Turkic world: creation of the Business Council of Turkic-Speaking Countries]. *İnstitut Blijnoqo Vostoka.* http://www.iimes.ru/?p=13508

Outzen, R. (2024). Security and Military Cooperation Among the Turkic States in the 2020s. Türkiye's Return to Central Asia and the Caucasus Svante E. Cornell Editor Silk Road paper, 15-30. https://silkroadstudies.org/resources/240622TRCA_merged.pdf

Lansev, S.A. (2013). Teoretiçeskiye konsepsii mejdunarodnoy inteqrasii i perspektivi inteqrasionnix prosessov na postsovetskom prostranstve. [Theoretical concepts of international integration and prospects for integration processes in the post-Soviet space]. *Vestnik SpbQU. Seriya:* 6, Vipusk 2, 65-74

Nikitina, Y.A. (2005). Rastuşaya rol Orqanizazii Doqovora o kollektivnoy bezopasnosti na postsovetskom prastranstve [The growing role of the Collective Security Treaty Organization in the post-Soviet space]. http://www.dkb.gov.ru/d/azzs.htm.

Ovsepyan, L. (2010). Voenno-politiçeskie aspekti sotrudniçestva Tursii so stranami Sentralnoq Azii: obşaya dinamika razvitiya. [Military and political aspects of Turkey's cooperation with Central Asian countries: general dynamics of development]. *Sentralnaya Aziya i Kavkaz.* Vipusk 2 (13), 93-100

Panfilova, V. (2022). Ankara sdelala perviy şaq k sozdaniyu armii Velikoqo Turana, [Ankara has taken the first step towards creating the army of the Great Turan]. https://www.ng.ru/cis/2022-11-16/1_8591_turkey.html

Samsonov, A. (2021). Pilayuşiy Afqanistan i "Velikiy Turan" [Burning Afghanistan and "Great Turan"]. *Voennoe obozrnie*. https://topwar.ru/184326- pylajuschij-afganistan-i-velikij-turan.html

Şanqarayev, R.N. (2021). Armiya Turana - proekt Tursii po voennoq inteqrasii turkskoqo mira: uqrozi I perspektivi. ["Army of Turan" - Turkey's project for the military integration of the Turkic world: threats and prospects]. *Obozrevatel*. 7. 70-85

Satıcı, A. (2023). Türk dövlətləri arasında ticarət əlaqələrinin inkişafına dair daha bir addım atıldı. https://ereforms.gov.az/az/ekspert-yazilari/turk-dovletleri-arasinda-ticaret-elaqelerinin-

Şumilov, M.M. & Şumilov, Y. M. (2021). Voennoe sotrudniçestva Tursii i Azerbaycana v kontekste realizasii proekta sozdaniya panturksroy armii. [Military cooperation between Turkey and Azerbaijan in the context of the implementation of the pan-turkist army project]. 322-326. 323

Şişkov, Y. V. (2001). İnteqrasionnie prosessi na poroqe XXI veka. Poçemu ne inteqriruetsya strain SNQ? [Integration processes on the threshold of the 21st century. Why are the CIS countries not integrating?]. 402

Toksabay, E. (2020). Turkish arms sales to Azerbaijan surged before Nagorno-Karabakh fighting https://www.reuters.com/article/us-armenia-azerbaijan-turkey-arms-

Troitskiy, E.F. & Zinovyev, V.P. (2018). Orqanizasiya doqovora o kollektivnoy bezopasnosti: stanovlenie, evolyusiya i krizis voenno-politiçeskoqo soyuza. [Organization of the Collective Security Treaty: formation, evolution and crisis of the military-political alliance]. *Slavyanskiy mir v usloviyax sovremennix vizovov*. 54, 335-350.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi. https://turkicstates.org/assets/dokuman/02_c_NahcivanAnlasmasi_Azerice_20140418_10314

Türk dünyası 2040 viyonu, (2022). Bütünleştirici ortaklıq. Anarşik uluslararası sistem içinde türk dünyası güvenlik topluluğu. https://www.ayu.edu.tr/yayinlar/yayin-detay/202cb962ac59075b964b07152d234b70

Turlibayeva, D.T. (2022). ODKB i eyo razvitie v usloviyax novix uqroz bezopasnosti. [CSTO and its development under new security threats]. *Mejdunarodniy nauçno-issledovatelskiy jurnal 9* (123), 1-5.

https://apa.az/az/social/tdt-ye-uzv-olkelerin-istiraki-ile-baki-2023-beynelxalq-telimi-kecirilib-foto-784531

https://armiya.az/ru/news/190158

https://armiya.az/ru/news/213223

https://www.bbc.com/azeri/articles/c4n3309r8yvo

https://www.bbc.com/rssuian/neüs-63955065

https://olke.az/dunya/299942/turk-dvletleri-teskilatina-uzv-lkelerin-inkisaf-banki-yaradilir/

https://ordu.az/az/news/193930/herbi-telimler-turkiye-azerbaycan-birliyinin,-qardasliginin-

https://ordu.az/ru/news/317078

https://president.az/az/articles/view/52122

http://president.az/mobile/articles/8775

https://musavat.com/news/turkiyenin-azerbaycana-herbi-yardimi-200-milyon-dollari-kecib_76541.html

https://modern.az/olke/423593/su-25-lerimiz-turkiyede-modernleshdirilecek-sazish-imzalandi/

http://news.milli.az/politics/296801.html

http://www.faktxeber.com/azrbaycan-v-trkiy-hrbi-hava-qvvlrinin-tlimi-davam-edir---foto_h457769.html

https://report.az/herbi-xeberler/bu-gun-azerbaycan-ve-turkiye-ordularinin-birge-taktiki-telimleri-baslayir/

https://turan.az/ru/politika/xaluk-gergun-hakim-budet-prostiratsia-ot-egeiskogo-moria-do-kaspiia-766820

https://turan.az/az/siyaset/tdt-sammiti-turk-dunyasinin-perspektivleri-2040-i-mueyyenlesdirib-771081

https://www.trtrussian.com/magazine/kak-kazahstan-ukreplyaet-oboronnoe-sotrudnichestvo-s-turciej-14103912

https://www.trtworld.com/turkiye/turkish-efes-2024-exercise-boasts-record-international-participation-18165305
.
https://www.turkishdefencenews.com/largest-military-exercise-of-the-turkish-army-in-years-efes-2022/.

https://1news.az/news/20240531022736354-Erdogan-Voennye-ucheniya-v-Turtsii-ne-

https://mod.gov.az/az/news/anadolu-ankasi-2024-beynelxalq-telimi-basa-catib-video-

https://www.zakon.kz/redaktsiia-zakonkz/5075657-kazahstanskie-voennye-prinyali-